**UOT 330.8:330:336.76 (479.24)**

# Azərbaycanda birjaların yaranması və fəaliyyət göstərməsinin tarixi-iqtisadi aspektləri



**Səməndərov Seyfəddin Sabir oğlu***
iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent


## Xülasə

*Tədqiqatın məqsədi:* Azərbaycanda birja təsisatlarının genezisi və institusional tarixinə dair faktların tədqiqi.

*Tədqiqatın metodologiyası:* retrospektiv və müqayisəli təhlil, sintez və deduksiya metodları.

*Tədqiqatın nəticəsi:* Azərbaycanda 1886-1930-cu illərdə birjaların yaranışı və fəaliyyəti tarixi-iqtisadi aspektdən qiymətləndirilməsi.

*Tədqiqatın məhdudiyyətləri:* Bunlar tədqiqat obyektinin spesifikliyi, elmi informasiyanın əldə olunması və tarixi faktların müqayisəli təhlil olunması imkanları ilə əlaqədardır.

*Tədqiqatın əhəmiyyəti:* respublikamızda birja təsisatlarının fəaliyyətinin təkmilləşdirilməsi ilə əlaqədar daha optimal mexanizmlərinin işlənilib hazırlanmasında tarixi təcrübədən yaralanma imkanı verməsi.

*Tədqiqatın orijinallığı və elmi yeniliyi:* tədqiq edilən problem, müəyyən edilən bir çox faktların ilk dəfə olaraq elmi dövriyyəyə çıxarılması.


**Açar sözlər:** *Azərbaycan iqtisadiyyatı, birjalar, fond birjası, əmtəə birjası, topdansatış ticarət*

## 1. Giriş

Müasir anlamda birjalar - təşkil olunmuş, müntəzəm fəaliyyət göstərən, qiymətli kağızlarla (*fond*), standart və nümunələri əsasında əmtəələrin topdansatış ticarəti, müxtəlif valyutalarla ticarət müqavilələri bağlanılan zaman tələb və təklifə əsasən

* AMEA, İqtisadiyyat İnstitutu. AZ 1143. Bakı ş., Hüseyn Cavid pr., 31.
seyfeddinsamandarov@mail.ru



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

müəyyən olunmuş rəsmi qiymətlərlə ticarətdir. Birjalar qiymət və sistemlərin yaranmasına birbaşa təsir edən institusional subyekt kimi öz əhəmiyyətinə görə banklar və bank sistemindən geridə qalmır. Bazar iqtisadiyyatı şəraitində dövriyyə sferasının əsas elementlərindən biri də birjalardır. Birjalar müstəqil kommersiya fəaliyyəti növü kimi xüsusi qaydalar üzrə əmtəələrin məqsədyönlü ticarət formasıdır.

Azərbaycanda ilk birja 1886-cı ildə yaranmış və birja təsisatlarının birinci dünya müharibəsi, daha sonra hərbi kommunizm siyasəti ilə əlaqədar fəaliyyəti bir neçə il ərzində dayandırılsa da 1922-1930-cu illərdə birjalar yenidən fəaliyyət göstərmişlər. Göründüyü kimi, tədqiq edilən dövr ərzində birja təsisatlarının fəaliyyəti təxmini olaraq yarım əsirlik bir dövrün spesifik xüsusiyyətlərini özündə əks etdirir və bu illərin institusional təcrübəsi müəyyən əhəmiyyət kəsb edir. Çünki nəzərə alsaq ki, birjalar. eyni zamanda, vergi subyekti, birja gəlirləri isə vergi obyekti kimi çıxış edir, bu zaman birja təsisatlarına daha anlamlı rakurslardan baxmaq mümkündür. Yəni, qeyd etmək lazımdır ki, birja praktikasında hər hansı biznes və kommersiya fəaliyyətində mənfəət məcmusu, əsas fondların və digər birja obyektlərinin reallaşdırılmasından əldə olunan mənfəət, həyata keçirilən birja əməliyyatlarından əldə edilən gəlirlər vergi obyekti kimi çıxış edirdi. Vergi obyektləri kimi qiymətli kağızlardan (*səhm, istiqraz, sertifikat və s.*) əldə edilən gəlir faizləri də çıxış edir.

Bütünlükdə, birjalar vergi ödəyicisi kimi maliyyə-təsərrüfat fəaliyyətləri ilə əlaqədar hesabat materialları hazırlamalı, həmin materialların mövcud qanunvericilikdə nəzərdə tutulmuş müəyyən müddət ərzində saxlanılmasının təmin etməli, dövlətin vergi işinə nəzarət edən müvafiq instansiyaların birjaların üzərinə düşən öhdəliklərin yerinə yetirilməsinə nəzarət işinə şərait yaratmalı idilər.

Sonrakı illərdə sovet iqtisadi idarəetmə praktikasında birja təsisatlarından istifadə olunmayıb.

Müstəqillik illərində Azərbaycanda birjalar yenidən yaranmış, hal hazırda respublikamızda Bakı Fond Birjasi (*BSE*), 2) BBVB - Bakı Banklararası Valyuta Birjası, 3) Respublika Əmtəə Birjasi, 4) Respublika Xammal və Əmtəə Birjasi, 5) Əmək Birjasi təsis olunaraq fəaliyyət göstərməkdədir. Göründüyü kimi, bu gün Azərbaycan Respublikasında birjaların müxtəlif növləri fəaliyyət göstərir. Lakin həmin birja təsisatların bazar iqtisadiyyatının əhəmiyyətli elementi kimi respublikamızda fəaliyyət göstərmələri üçün birinci növbədə birja praktikası zamanı toplanılmış təcrübələrdən yararlanmağa ehtiyac vardır. Bir tərəfdən bu gün dünyanın aparıcı dövlətlərində birja praktikası sahəsində təcrübənin öyrənilməsinə ehtiyac varsa, digər tərəfdən bununla yanaşı respublikanın özündə birja təsisatlarının genezisi və institusional tarixi ilə əlaqədar gerçəkliklərin nəzərdən keçirilməsi xüsusi əhəmiyyət kəsb edir.

## 2. XIX əsrin sonları və XX əsrin əvvəllərində birjalar

Azərbaycanda topdansatış ticarət praktikası, dünya və regional ticarətdə böyük rol oynayan ticarət və yarmarkaların yaranması tarixi son antik və erkən feodalizm

dövrünə gedib çıxır. Lakin Azərbaycanın, eyni zamanda, dövrün fövqəl güclərinin maraq və təsir dairəsində olması, müəyyən mənada, yadelli istilaları və dağıdıcı müharibələr sözügedən institusional obyektlərin bazasında topdansatış ticarət formasının daha mütəşəkkil formalarının ölkəmizdə bir qədər erkən dövrlərdə bərqərar olması prosesinə neqativ təsir göstərmişdir. Konkret olaraq, Azərbaycan ərazisində yaranan ilk birja kimi 1886-cı ildən yaradılan Bakı Birjasının adı çəkilir. Bu baxımdan da qeyd olunmalıdır ki, Azərbaycanda birjalar sahəsində institusional tarixi təcrübənin əsasını Rus imperiyası zamanındakı birja reallıqları təşkil edir.

İnqilabdan əvvəl Rusiyada ilk əmtəə və veksel birjası 1703-cü ildə Peterburqda açılmışdı. Rusiya birjalarının əksəriyyəti XIX əsrin II yarısında təşkil olunmuşdur və artıq Birinci Dünya Müharibəsi ərəfəsində birjaların sayı 114-ə çatmışdı. I Dünya müharibəsinin əvvəllərində birjalar rəsmən bağlanmışdı [1, II c., s. 181].

Rusiya imperiyasında birjalar içərisində aparıcı yer Peterburq birjasına məxsus idi. Əyalətdəki birjalarda Peterburq birjasına əsasən öz işlərini qururdular. Qeyd edildiyi kimi, Bakı Əmtəə Birjası 1886-cı ildə yaradılmış və 1887-ci ildən öz işinə başlamışdır [6, s. 19].

Daha sonra diqqəti XX əsrin əvvəllərində Peterburq Fond birjasında qiymətlərin təyin olunması ilə əlaqədar dərc olunan materiallar cəlb edir. Sözügedən materiallar rəsmi birja bülletenlərində, "Sankt-Peterburq birjasında rəsmi veksel və fond kotirovkası"nda öz əksini tapan materiallar idi. Peterburq birjasında "Bakı neft cəmiyyətinin" səhmləri, "Nobel qardaşlarının neft istehsalı cəmiyyətinin hissələri, "Xəzər neft sənayesi və ticarət cəmiyyətləri şirkətinin", "A.İ.Mantaşev və K" səhmləri qiymətli səhmlər idi. Bakı neft cəmiyyətinin səhmləri qiymətli kağızlar bazarında ən çox əməliyyatlar aparılan sənədlər kimi də diqqəti cəlb edir. Ümumiyyətlə, Bakı neft cəmiyyəti 1874-cü ildə yaradılmış, əsas kapitalı 2 milyon manat olmuş, hər səhm 100 rubl nominalı dəyərində idi. Məqsəd neft, neft yağı məhsullarının çıxarılması və onunla ticarət olunması idi. "Xəzər (səhmdar) cəmiyyəti" 1886-cı ildə Bakı şəhəri yaxınlığında kerosin zavodunu, Xəzər sahillərində Balaxanı-Sabunçuda neft mədənlərinin işlədirdi. Cəmiyyətin kapitalı 1000 rubl dəyərində nominallara bölünmüşdü. "A.İ.Mantaşev və K$^{0}$"cəmiyyəti 1899-cu ildə yaradılmış, elan olunmuş məqsədi A.İ.Mantaşev ticarət evinə məxsus Bakı quberniyasında neft mədənlərinin, Bakı şəhəri yaxınlığında kerosin-yağ zavodlarının, Batumi yaxınlığında yeşik zavodunun, Batumi və Odessa yaxınlığında neft doldurma stansiyalarının istismarı idi. Əsas və ilkin kapitalı 22 milyon manat idi, hər səhmin dəyəri 250 rubl nominalı dəyərində idi. Nobel qardaşları neft istehsalı cəmiyyətinin nizamnaməsi 1879-cu ildə təsdiq olunmuşdur. Cəmiyyət neft hasilatı və emalı sahəsində imperiyanın bütün ərazisində işlər yürüdürdü. Cəmiyyətin kapitalı 2000 manat dəyəri olan hissələrə və öz növbəsində 250 manat dəyərində olan səhmlərə bölünürdü. Yuxarıda adları çəkilən cəmiyyətlərin səhmləri ilə əlaqədar birja əməliyyatlarının həyata keçirildiyi Peterburq fond birjasının konyunkturasında XX əsrin əvvəllərində hələ 1899-cu ildən

başlayan durğunluq hökm sürürdü. Ancaq 1903-cü ildən başlayaraq qiymətli kağızların qiyməti yüksəlməyə başladı. Daha sonra rus-yapon müharibəsi də birjanın işinə mənfi təsir göstərdi. Yalnız 1907-ci ildən etibarən birjanın işi bir qədər yaxşılaşmağa başladı [5, s. 28-45].

Göründüyü kimi, Azərbaycanda birjaların yaranması tarixi XIX əsrin 80-ci illərinə aid edilsə də, qiymətli kağızlar bazarının yaranması XX əsrin əvvəllərinə təsadüf edir. Ölkəmizdə ilk səhmlər 1913-cü ildə Bakı Tacir Bankının nizamnaməsinin təsdiq edilməsi ilə buraxılmışdır. Bu bankın əsas səhmdarları Azərbaycanın tanınmış sahibkarları - şuranın sədri H.Z.Tağıyev, üzvləri M.Əsədullayev, M.Nağıyev, M.Muxtarov və başqaları olmuşlar. XX əsrin ilk iki onilliyində Bakıda fəaliyyət göstərən bir sıra səhmdar cəmiyyətlər əsas emitentlər kimi çıxış edirdilər. Bu cəmiyyətlərin əksəriyyəti neft istehsalı, emalı və ticarəti ilə məşğul olurdu. Onlardan "Neft məhsulları səhmdar cəmiyyəti", "Bülbülə neft və ticarət səhmdar cəmiyyəti", "Balaxanı-Zabrat neft istehsalı səhmdar cəmiyyəti" və digərlərini qeyd etmək olar. Yeni Bakı Neft Emalı Zavodunun, Bakı Tacir Bankının və başqa iri şirkətlərin səhmləri Moskvanın, Sankt-Peterburqun və Rusiyanın digər iri şəhərlərinin fond birjalarında satışa çıxarılırdı.

XIX-XX əslərdə Azərbaycanda iri Rusiya banklarının Bakı filialları fəaliyyət göstərirdi. Bu sırada Sankt-Peterburq Dövlət Bankının (1874-1920), Sankt-Peterburq Beynəlxalq Kommersiya Bankının (KB) (1868-1920), "Voljsk-Kams" KB (1870-1920), Rusiya Xarici Ticarət KB (1871-1919), "Rusiya Sənaye ticarət" KB (1890-1920), "Şimal" KB (1901-1910), "Rusiya Asiya" KB (1910-1920), "Azov-Don" KB (1877-1920) və b. göstərmək olar. Hələ 1900-cu ilin "Kaspi" qəzetinin səhifələrində veksel islahatı haqqındakı məqalələrdə bu qiymətli kağızın o zaman geniş istifadəsi və labüdlüyünü təsdiq edən maraqlı məlumatlar dərc olunurdu. Həmin dövrdə Bakı Tacir Bankı və Bakıda fəaliyyət göstərən digər banklar tərəfindən veksellər və faiz kağızları buraxılmışdır. Veksellərdən ödəniş prosesində və borc münasibətlərinin formalaşmasında geniş istifadə olunmuşdur. Veksel bazarı Azərbaycan Demokratik Respublikası dövründə də inkişaf etmiş, lakin Sovet hakimiyyəti dövründə məhdudlaşdırılmışdır. Sovet Azərbaycanında bütün MDB məkanında olduğu kimi dövriyyədə olan əsas qiymətli kağız uduşlu dövlət istiqrazları olmuşdur.

### 3.Sovet dövründə birjalar

Oktyabr inqilabından sonra imperiya ərazisində birja komitələri və birjaların fəaliyyəti dayandırıldı. Çünki birjalar hərbi kommunizmə nəzəri və praktiki baxımdan uyğun gəlmirdi. Yəni 1917-ci ilin dekabrında qiymətli kağızlarla sövdələr qadağan olunmuş, 1918-ci ilin yanvarında isə çar istiqraz vərəqələri ləğv edilmişdir [1, s. 181]. Lakin çox keçmir, 1921-ci ildə Yeni İqtisadi Siyasətlə əlaqədar bütün ölkədə kortəbii olaraq birjalarda fəaliyyətə başladı və müvafiq olaraq, normativ sənədlərdə meydana çıxmağa başladı. Belə ki, Rusiya Sovet Federativ Sosialist Res-

publikasının Ali Xalq Təsərrüfatı Şurasının və onun əyalət orqanlarının qərarlarına əsasən əmtəə birjaları təsis olundu. 1922-ci ildə avqustun 23-də Əmək və Müdafiə Şurası "Əmtəə birjaları haqqında qərar" qəbul etdi [3, s. 11]. Daha sonra RSFSR Xalq Komissarları Soveti "Fond birjaları əməliyyatları haqqında qərar" qəbul etdi və həmin qərarlar əsasında Azərbaycan SSR-də birjalarla əlaqədar prosedurlar müəyyənləşdirilmişdi. 1922-ci ildə mart ayında Azkooperasiya və dövlət müəssisələri tərəfindən Bakı Birjası yaradıldı. Yeni Nizamnaməyə əsasən Birja aşağıdakı vəzifələri daşıyırdı [7, s. 20-22, №4, 1923]:

- ❍ Azərbaycan bazarlarında dövriyyədə olan və dövriyyəyə daxil ola biləcək bütün növ əmtəələrə, zinət əşyalarına, xarici valyutalara tələb və təklifin müəyyənləşdirilməsi;
- ❍ yuxarıda adları çəkilən həm yerli, həm də gətirilən əmtəə və qiymətli əşyalarla istər dövlət, istər kooperativ, istərsə də fiziki şəxslərin ticarət əməliyyatlarının tənzimlənilməsi;
- ❍ birja üzvlərinə birja əməliyyatlarının aparılması üçün tələb olunan texniki şəraitin yaradılması;
- ❍ bağlanmış birja müqavilələri, bazar, qiymətlər, tələb və təklif, nəqliyyat haqqında məlumatların toplanılması və nəşr olunması;
- ❍ bağlanılmış müqavilələrlə əlaqədar münaqişələrin həlli;
- ❍ ticarət və sənayenin ehtiyacları haqqında ərizə və təqdimatların hazırlanılması.

Qeyd etmək lazımdır ki, bu qərarlar 1925-ci ilə kimi qüvvədə olmuşdur. Müvafiq olaraq bütün Rusiyada və daha sonra SSRİ-də 1922-ci ildə 50, 1923-cü ildə 79, 1924-cü ildə 96 birjalar var idi. Birjalar nəinki quberniya, hətta qəza mərkəzlərində də yarandı. 1925-ci ildə oktyabrın 2-də "Əmtəə və Fond birjaları, əmtəə birjalarında fond şöbələri haqqında Əsasnamə" qəbul olundu. Əsasnamədə bildirilirdi ki, birja ticarət edən müəssisə və şəxslərin müəssisəsidir və aşağıdakı məqsədləri daşıyır:

- ❖ ticarət sövdələşmələrinin aparılması üçün ticarət edənlərin müntəzəm toplanmasına imkan yaratmaq;
- ❖ əmtəələrin qiymətləri, tələb və təklifinin müəyyənləşdirilməsi;
- ❖ ticarət dövriyyəsi və onunla əlaqədar dövriyyə əməliyyatlarının öyrənilməsi, nizama salınması və daha əlverişli şəraitin yaradılması;
- ❖ hökumət orqanları qarşısında ticarətin maraq və ehtiyaclarını ifadə edən təmsilçilərin olması;
- ❖ birjada qeydə alınmış ticarət sövdələşmələrində yaranan münaqişələrin barışdırıcı üsullarla həlli.

Qeyd etmək lazımdır ki, 1925-ci ildə oktyabrın 2-də qəbul olunmuş "Əmtəə və Fond birjaları, əmtəə birjalarında fond şöbələri haqqında Əsasnamə" 88 bənddən ibarət olub 1928-ci ilə kimi mövcud olmuş, 1928-ci ildə 88 bənddən ibarət yeni əsasnamə qəbul olunmuşdur [3, s. 11].

SSRİ Xalq Daxili Ticarət Komissarlığının izahat materiallarından məlum olur ki,

20-ci illərdə birjalar, formal da olsa, dövlət idarəsi sayılmırdı, idarəetmə orqanları iyerarxiyasında yer tutmayıb, özünüidarəetmə prinsipləri və öz vəsaitləri əsasında fəaliyyət göstərirdilər. Birja Komitəsinin tərkibi seçilərək tərkibi haqqında məlumat Xalq Daxili Ticarət Komissarlığına təqdim olunurdu. 1926-cı ildə oktyabrın 1-də bütün SSRİ-də 114 əmtəə birjası və birjaların bütünlükdə 8514 ticarət-sənaye müəssisə və fiziki şəxs qismində üzvləri var idi. 1927-ci ildə SSRİ Xalq Komissarları Sovetinin iclasında birjalar və onların şəbəkəsinin fəaliyyətinin yenidən nəzərdən keçirilməsi gündəmə gəldi. Qərara alındı ki, ən iri ticarət qovşaqlarında ancaq birjalar saxlanılsın və onların sayının 14 olması müəyyən olundu. 1930-cu ildə bütün əmtəə birjalarının ləğv edilməsi qərara alındı [6, s. 23-29].

Göründüyü kimi, 1921-1930-cu illərdə Birjalar çox ukladlı iqtisadi şəraitdə bazarı tənzimləyən və fəaliyyətinə dövlət tərəfindən ciddi nəzarət edilən iqtisadi mexanizm kimi diqqəti cəlb edir. 1930-cu ildə çox ukladlılığın ləğvi, planlı iqtisadiyyatın güclənməsi sovet dövlətinə birjaların bağlanılması imkanı yaratdı.

## 4. İqtisadi ədəbiyyatlarda birjalarla əlaqədar dəyərləndirmələr

Bu xüsusda öncə "İqtisadi Xəbərlər"də "M" imzası ilə 1921-ci il 22 noyabr tarixi göstərilməklə dərc edilən "Bazardan birjaya" başlığı ilə dərc edilən məqalədə səslənən fikirlərə diqqət yetirmək yerinə düşərdi. Məqalədə yazılırdı ki, bizim təsərrüfatımız bazarla sıx əlaqədədir. Əmtəə mübadiləsi yeni iqtisadi siyasətin başlıca vasitəsidir. Buna görə də bizim təsərrüfat fəaliyyətimizin nəticəsi olan xidmət və əmtəələrin qiymətləndirilməsinə ehtiyac yaranır. Ölkədə əmtəə fondunun və dövriyyəsinin artması ilə ölkə sənayesinin inkişafı bir-biri ilə əlaqəlidir. Belə bir şəraitdə qiymətlərin müəyyənləşdirilməsinin praktiki əhəmiyyəti yüksəlməkdədir. İstər xüsusi şəxs, istərsə də dövlət istehsalçı kimi təsərrüfat hesablarının məqsədəuyğunluğu baxımından tələb və təklifin təsiri ilə bazarda əmtəələrin qiymətlərinin tərəddüd və dəyişkənliyini diqqət mərkəzində saxlamalı olur. Lakin istehsalçı əksər hallarda qiyməti təyin etmir, bazarda mövcud qiymətlərə uyğun hərəkət etməli olur. Bu zaman istehsalçılar qarşısında istehsal edilən məhsulun maya dəyəri və mənfəətin müəyyən edilməsi məsələsi durur. Müəllif hesab edir ki, mənfəət istehsalçının iştahasından asılıdırsa, istehsal edilən məhsulun maya dəyərindən müəssisənin mövcud olması asılıdır və bu bazar konyunkturasına uyğun olaraq müəyyən edilir. Bazarı, qiymətləri bilmədən təsərrüfat hesabı əsasları ilə istehsalı təşkil etmək mümkün deyil. Bazar istehsalın müasir anlamda təşkil edilməsinin əsas vasitəsi olub, xüsusi təşəbbüsün inkişafına təkan verir. Lakin dövlət sənayesi üçündə bazarın əhəmiyyəti inkar edilə bilməz. Ölkədə təsərrüfat hesabına keçid ona görə ləngimişdir ki, bazarda əmtəə dövriyyəsi mexanizmi ləng inkişaf etməkdə idi. Respublikada sabunbişirənlər, gön-dəri emal edənlər, tütünçülər, yağ bişirənlər təsərrüfat hesabına asan keçdilər. Lakin metal məmulatlar hazırlayanlar çətinliklə üzləşdilər. Çünki onların məhsullarına bazarda o qədərdə ehtiyac yox idi. Bazarın mövqeyi

möhkəmləndikcə "bazar qiymətlərinə" daha da yaxınlaşılacaq. İndi tərtib edilən təsərrüfat planları inqilabdan əvvəlki heç nəyə yaramayan, cansız qiymətlərə əsaslanır. Lakin bir məsələdə var ki, hətta əmtəələrin düzgün bazar mübadiləsində, məhsulun alqı-satqısı, əldən ələ keçməsindən asılı olaraq qiymətlər dəyişir. Bununla yanaşı, qiymətlərə bir sıra digər subyektiv şərtlərdə təsir göstərməkdədir. Bunlar aşağıdakılardır: bazara vaxtında müvafiq kəmiyyətdə məhsulun gətirilməsi, tələblə təklif arasında nisbətlərin çox tez dəyişməsi tendensiyası. Məhz bu səbəblərdən fabrikatların, ərzaq və valyuta məhsullarının qiymətlərinin düzgün hesablanması müəyyən risk tələb edir, bu hesablamalar etibarlı deyil. Belə olan halda köməyə birja gəlməlidir. Məhz birja qiymətlər haqqında dərhal və dəqiq məlumat verə bilir, tacirlərə vaxtlı-vaxtında alqı-satqını sifarişlər əsasında həyata keçirməyə imkan verir. Birjaların fəaliyyətinin ağırlıq mərkəzini alqı-satqı fəaliyyətinin mərkəzi olmaq təşkil edir. Məhz birjanın vasitəsi ilə istehsalçı və tacir beynəlxalq bazarda baş verən hadisələri ən xırda təfərrüatlarına qədər öyrənmiş olur. Birja ticarət və sənayenin inkişafına müsbət təsir edir. Lakin bazardan fərqli olaraq, burada alqı-satqı məhsulların nağd alqı-satqısı ilə həyata keçirilmir. Bazardan birjaya keçmək vaxtıdır. Bu isə heç nəyə yaramayan, qiymətləri reallıqdan təcrid olunmuş vəziyyətdə təyin edən bir sıra komitə və komissiyaların ləğv edilməsinə imkan yaradır. Birja qarşısı alınmayan və artmaqda olan möhtəkirliklə mübarizə etməyə imkan yaradır. Möhtəkirlik alıcı və satıcı arasında alqı-satı əlaqəsinin koordinə edilməməsi nəticəsində yaranır. Birja az da olsa pulun kursunun sabit qalmasına da təsir edəcəkdir. Məhz birja vasitəsi ilə resursların dəqiq uçotu aparıla bilər, əmtəə fondu ilə təklif arasında uyğun nisbətlər müəyyənləşdirilə bilər. Əmtəə fondunun vəziyyəti ölkədə kimdə olmasından asılı olaraq pulun alıcılıq qabiliyyətinə təsir edir və bu təsir birja təşkilatları vasitəsi ilə həyata keçirilir. Burada isə dövlətin ümumi iqtisadi maraqları ifadə olunmalıdır. Başlıca vəzifə bazarın inkişafı və möhkəmlənməsinə əngəl olmadan birjanın yaradılmasıdır. Avropa və Amerikada birjaların müxtəlif formaları mövcuddur. Lakin birjaların dövlətə tabe edilməsi, dövlət tərəfindən seçilmiş şəxslər tərəfindən birjada ticarət qaydalarının müəyyən edilməsi olduqca vacibdir. Sonunda tədqiqatçı birjanın gələcək quruluşu məsələsinə toxunmadan Zaqafqaziya Respublikalarının birləşəcəyi ilə əlaqədar ona  Zaqafqaziya Ali İqtisadi Şurasının nəzarət etməsini vacib hesab edirdi və təklif olunurdu ki, respublikalardakı birjaya daha yaxından nəzarət etmək üçün hökumət tərəfindən komissar təyin edilməli, Birja Şurası seçilməlidir və eyni zamanda Birja Şurasına 1) hökumət tərəfindən təyin edilmiş şəxslər, 2) Xüsusi-ictimai təşkilatların (*kooperativlərin*) nümayəndələri, 3) tacir və sənayeçilərdən seçilmiş şəxslərin daxil olması məqsədəuyğun hesab edilirdi [7, s. 5-7, №2, 1921].

1923-cü ildə "Экономический Вестник" (*İqtisadi xəbərlər*) jurnalının 4-cü nömrəsində "Müşahidəçi" imzası ilə Bakı Birjası haqqında dərc olunan materialda xüsusi olaraq diqqəti cəlb edir. Burada yazılırdı ki, Bakı Birjasının I paraqrafında yazılır ki, Birja Bakıda ticarət edən şəxslərin daimi yığıncaq yeri, ticarət və sənayenin bütün

sahələri üzrə qarşılıqlı ticarət əlaqələri aparılan yer, bütün bunlar haqqında tələb olunan informasiyanın əldə olunduğu yer kimi xarakterizə olunur. Təbii ki, "Kubunka" birja deyil, çünki Kubinkada da tacirlər daimi olaraq alqı-satqı əlaqələri qururlar. Bütün Bakılılar yaxşı bilirlər ki, birja Qafqaz Bankında (*Milyutin və Baratınski küçələrinin kəsişdiyi yerdə*) yerləşən tikilidir (*otaqdır*). Burada daimi olaraq tacirlər, vasitəçilər, rəsmi və qeyri rəsmi maklerlər və müxtəlif idarələrin kassirləri yığışırlar. Burada milyard manatlarla pul sahibi olanlar öz pullarını qızıla dəyişir, işsizlər əmək birjasında qəmgin-qəmgin iş axtarırlar. Müxtəlif dil və ləhcələrdə danışan insanlar bir mərkəz ətrafında qızıl onluq ətrafında dövr edirlər. Budur birjanın ilk mənasının ifadəsi. Daha sonra Bakı Birjasının fəaliyyəti təhlil olunaraq yazılırdı ki, özü-özlüyündə Birja Əmtəə və Dövlət-kooperativ birjası olmalıdır. Öz çəkisinə görə xüsusi kapitalın iştirakçı kimi rolu azdır. Ticarət etmək, birjalarda müqavilə bağlamaq üçün bu müqavilələrin qeydiyyata alınması tələb olunur. Bir sözlə, dövlət təsərrüfat orqanları və kooperatorlar birjada qarşıya qoyulmuş məqsədlərə nail olmalıdırlar. Lakin qəti olaraq demək olar ki, dövlət təsərrüfatçıları və kooperatorlar öz borclarını yerinə yetirməyiblər. Birja üzvlərinin qeydə alınması üzvlük haqlarına görə ləng getmişdir. 1922-ci ildə Bakı Birjasında gəlirlərin üçdə iki hissəsini daimi üzvlər deyil, iştirakçılar, qonaqlar (*müştərilər*) ödəmişlər.

Birjanın gəlirləri aşağıdakı kimidir:

- müştərilərdən alınan vergi -70%;
- sənaye gəlirlərindən 5%, bütün vergilərdən 12%;
- üzvlük haqqı 7%;
- bütün gəlirlə haqqında məlumat sənədləri üçün ödənişlər-11%.

Bütünlükdə Birjanın fəaliyyətinin təhlilindən belə nəticə çıxarılırdı ki, sağlamlaşdırıcı tənzimlənmə funksiyasını yerinə yetirən qırmızı, sovet birjası mövcud deyil, birja oyunlarında bir ovuc möhtəkir xırda yemlər hesabına varlanmış, getdikcə qiymət artımı müşahidə olunmuş, proletarların zəhmət haqqı hesabına möhtəkirlər yaşamaqdadır. Bütünlükdə Birjanın 1922-ci ildəki fəaliyyəti qeyri qənaətbəxş hesab olunurdu və bildirilirdi ki, baxmayaraq ki, Birja Komitəsi müəyyən işləri yerinə yetirməmişdir, Birja qarşısında durana məqsəd və vəzifələr o qədər böyükdür ki, dövlət müəssisələri və kooperativlərin dəstəyi olmadan həmin vəzifələrin öhdəsindən gəlmək mümkün deyil. Lakin Birjanın fəaliyyət göstərdiyi qısa müddətdə əhəmiyyəti artmış, valyuta və əmtəələr barəsində məlumatlar əks etdirən Birja Bülleteninin nəşr olunması bütün təsərrüfat orqanları və hətta fiziki şəxslər üçün əhəmiyyətli sənədə çevrilmişdir [7, s. 20-24 №4, 1923].

"Экономический Вестник"də dərc olunmuş yuxarıda göstərilən materialda səslənən fikirlərdən görünür ki, 20-ci illərin əvvəllərində dərc olunmuş materiallarda Yeni İqtisadi Siyasətin gətirmiş olduğu imkanlara əsasən birjaların iqtisadi münasibətlərin tənzimlənməsində faydalı institut kimi xarakterizə edən fikirlər səslənilməkdə idi. Lakin 20-ci illərin sonlarına doğru dövrü mətbuatda və bir sıra digər

ədəbiyyatlarda birjaların fəaliyyəti kəskin tənqid olunaraq birjalar faydasız ictimai-iqtisadi təsisat kimi xarakterizə olunmaqda idi.

Qeyd etmək lazımdır ki, tədqiq edilən illərdə Azərbaycanda əmək birjası da fəaliyyət göstərirdi. Lakin sözügedən birjanın fəaliyyəti sovet dövrü mətbuat orqanlarında durmadan tənqid olunurdu. Bu xüsusda diqqəti "Бакинский рабочий" (*Bakı fəhləsi*) və "Kommunist" qəzetlərində dərc edilən materiallar cəlb edir. Tənqidi materiallar ilk olaraq "Бакинский рабочий" qəzetində 1929-cu ildə aprelin 18-də dərc olundu. Sözügedən material "Əmək Birjasının qarətçiləri (*çapovulçu*)" sərlövhəsi ilə dərc edildi və materialda Samuil Levin və Aryutunovun əmək birjasında işsizlərin növbəsində qayda qanuna nəzarət etməli olduqları halda, onlar bu işdən özləri üçün qeyri adi gəlir əldə etdikləri bildirilirdi. Daha sonra materialda yazılırdı ki, birjanın 6-cı seksiyasının rəisi S.Levin işsizlər blankının 15 manata "keçmiş insanlara" satışını təşkil edir, satışın artırılması üçün isə tezliklə ayrı bir rəisin olacağı barədə şayiə yayılmış, lakin bu barədə müvafiq orqanlar məlumat tutmuşlar və Arutynov qaçıb gizlənə bilmiş, S.Levin isə 8 ay müddətinə məhkum olunmuşdur [4, №89, 1929].

Göründüyü kimi, sovet dövründə bürokratik prosedurların yerinə yetirilməsi üçün müəyyən sənədlər, hətta insanın statusunun bu və ya digər xüsusiyyətlərini özündə əks etdirən forma və sənədlər birjadan kənar, qeyri formal spekulyasiya obyektinə çevrilmişdi. Daha sonra diqqəti 1929-cu ildə aprelin 28-də "Бакинский рабочий" qəzetində "Əmək birjasının əsaslı təmizlənilməsi" adı altında dərc edilən material cəlb edir. Materialda da yazılırdı ki, əmək birjası işləmək istəməyən elementlərlə zibilləndiyi üçün mayın 10-dan iyulun 15-nə kimi Bakı Əmək birjasında və onun rayon şöbələrində əsaslı təmizlik işləri aparılacaq. Seçki hüququndan məhrum edilənlər, müxtəlif müəssisələrin istismarçı ünsürləri və küçə xuliqanları qeydiyyatdan çıxarılacaq. Eyni zamanda, 1 il müddətinə birja tərəfindən göndərilsə də iki dəfə göndərişdən imtina edənlər, əmək intizamını sistematik pozanlar kənd-təsərrüfatı və kustar sənətkarlıqla əlaqəsi olanlar da 1 il müddətinə qeydiyyatdan çıxarılacaq. Maddi cəhətdən təmin olunmuş, lakin işsiz şəxslər qeydiyyatdan çıxarılmayıb, ancaq ikinci növbədə işlərə göndərilirlər. Bütün işlərin yerinə yetirilməsi üçün hər seksiyada Xalq Əmək Komissarlığının əmək şöbəsindən, Bakı Sovetindən, Həmkarlar İttifaqından təyin olunmuş şəxslərdən ibarət komissiya nəzarət etməli. İşsizlər arasında həyata keçirilən tədbirlərin hansı məqsədlər daşıdığı barədə izahatlar aparılacaq və onlar birinci növbədə iş ilə təmin olunacaqlar [4, №97, 1929].

1929-cu illdə avqustun 5-də "Бакинский рабочий" (*Bakı fəhləsi*) qəzetində "Əmək birjasının başında cinayətkarlar dururlar" sərlövhəsi ilə dərc edilən növbəti materialda yazılırdı ki, birjada işsizlərlə olduqca həyasız davranılır, qəbul qeydiyyatlar əsasında aparılır, rüşvət alınır, birjaya sabiq müsavat zabiti rəhbərlik edir. Qeyd etmək lazımdır ki, həmin illərdə Əmək birjasının Bakı şəhərinin rayonları üzrə şöbələri fəaliyyət göstərirdi. Məqalədə həmin şöbələrdən biri olan Lenin rayonundakı əmək birjasının şöbəsində Fəhlə-Kəndli Müfəttişliyinin apardığı yoxlamalar zamanı

çıxarılmış nəticələr bəyan olunurdu. Tənqidi materialda yazılırdı ki, Birja idarə heyəti işsizlərlə olduqca kobud davranır və bu səbəbdən də 42 işsiz Xalq Əmək Komissarlığına şikayət ərizəsi ilə müraciət etmişdir. Şikayət ərizələri Rəhimova göndərilsə də, o şikayət edən işsizləri qeydiyyatdan çıxaracağı ilə hədələmişdir. Komissiyanın işi zamanı işsizlərdən ibarət qrupun iclası çağırılmış, iclas da çıxış edən Nikitina və Şiqayevanı Rəhimov öz yanına çağıraraq, heç bir işə göndərilməyəcəklərini bildirmişdi*. Əmək birjasına çox zaman yuxarı instansiyalardan tanışlıq zəminində kiminsə işə qəbul olunması barədə məktublarda verilir. Həmin məktublardan birinin komissiya tərəfindən birjanın mədəniyyət şöbəsinin rəisi Vanuntsa təqdim olunduğu zaman o, məktubu ləğv edərək, belə məktublarla AK(b)P rayon komitəsi üzvlərinin üçdə iki hissəsinin müraciət etdiyi bildirilmişdir. Dərc edilmiş materialda Rəhimovun Vanuntsa bəraət qazandırdığı da xəbər verilirdi. Komissiya tərəfindən bir sıra şəxslər şahid qismində dindirilmiş, 100 nəfərdən çox şəxsin rüşvət müqabilində Rəhimov tərəfindən işə göndərildiyi yazılırdı. Onlardan Məhəmməd Maqamayevin 50 manat rüşvət müqabilində Balaxanı mədənlərinə dartayçı (*jalonka ilə quyudan neft çıxaran fəhlə*), Hali Məmmədovun 40 manat rüşvət müqabilində 7-ci mədənə dartayıcı, Əhməd Məhəmməd Hacıyevin 40 manat rüşvət müqabilində Azneftin evlər kontoruna, Etiynal Əliyevin Zabrat ambulatoriyasına 50 manat rüşvət müqabilində gözətçi, Əli Əkbər Hacıyevin 4-cü mədənə 50 manat rüşvət müqabilində dartayıcı, Məmməd Abdul Rizanın Mərkəzi Təftiş Komissiyasına gözətçi, Hacı Şabanovun kərpic zavoduna 50 manat rüşvət müqabilində fəhlə, Nəcməddin Maqamayevin 9-cu mədənə pinəçi kimi işə göndərilməsi üçün rüşvət verdiyi, Eyni zamanda, Qurbançı Hacı Sadullayev və Şanxal Məhəmmədov hər biri 50 manat pul versələr də, hələ işə göndərilmədikləri xəbər verilirdi. Rəhimovun bütün bu işləri AK(b)P-nin üzvü, həmyerlisi Nəbi Əliyev vasitəsi ilə etdiyi də bildirilirdi. Daha sonra Rəhimovun şəxsiyyəti barədə yazılırdı ki, komissiya onun şəxsiyyəti ilə maraqlanaraq araşdırma aparmışdır. Rəhimov Gəncədə yunkerlər məktəbini bitirmiş, qızıl orduya qarşı vuruşmuş, Şuşa ətrafında döyüşlərdən sonra İrana qaçmışdır. Komissiya Rəhimov və Vanuntsun cinayətləri barədə Azərbaycan Dövlət Siyasi İdarəsinə və AK(b) P-nin MK-sı Komissiyasına məlumat vermişdir [4, №180, 1929].

1929-cu ildə avqustun 15-də "Бакинский рабочий" (*Bakı fəhləsi*) qəzetində dərc edilən digər materialda birja aparatında aparılan "təmizləmə" işlərindən xəbər verilirdi. Dərc olunmuş materialda yazılırdı ki, Əmək bazarı şöbəsində əmək birjası seksiyalarının rəislərinin, Əmək Birjasının işini təftiş edən komissiya üzvlərinin, həmçinin Həmkarlar İttifaqından və Fəhlə Kəndli Müfəttişliyindən də nümayəndələrin iştirakı ilə keçirilən iclasda İbrahimov bildirdi ki, əmək birjası aparatında təmizlik işləri aparıldıqdan sonra avqustun 17-dən birja öz işinə başlayacaq. İclasdakı çıxışlarda səslənən fikirlər içərisində aşağıdakılar xüsusi olaraq diqqəti cəlb edir.

*Yuxarıda adları çəkilən birja işçiləri və işsizlərin kimlikləri ilə əlaqədar məlumat əldə olunmamışdır.

Çıxış edənlər bildirdilər ki, əmək birjasında qeydiyyatda olan işsizlərin hər birinin yoxlamadan keçirilməsi işini həyata keçirmək o qədərdə asan iş deyil, çünki burada söhbət 30 min işsizdən gedir. Digər tərəfdən bir çox işsizlərin yazıb oxumaq bacarığı olmadığından yoxlamalar barədə məlumatları olmur, bəzi işsizlər üç dəfə birja tərəfindən işə göndərilmələrinə baxmayaraq həmin iş yerlərinə getmədikləri üçün qeydiyyatdan çıxarıldıqdan sonra, onlar təkrar olaraq yenidən işsizlər kimi qeydiyyata düşə bilirlər. Bir çox hallarda birjanın göndərdiyi işlərə getməyənlər tibbi arayış və digər sənədlərlə birjaya müraciət edir və birja tərəfindən həmin sənədlər qəbul olunur. Dərc olunmuş materialda bütün bu hallara qarşı mübarizə aparılmasının vacibliyi fikri səslənirdi [4, №189, 1929].

Daha sonra 1929-cu ildə avqustun 16-da yenə də "Бакинский рабочий" qəzetində "Əmək birjasında artıq insanlar" sərlövhəsi ilə dərc edilən digər material diqqəti cəlb edir. Materialda yazılırdı ki, biz şəhər əmək birjasındayıq, Seksiya və kabinetlərin önü işsizlərlə doludur. Birja rəhbərliyinə gedib çatmaq çətindir, hər yerdə qolu zorlu cangüdənlər dayanıb. Onları işsizlərdən komendant təyin edir. Komendant işsizlərlə kobud rəftar edir və cangüdənlərdə ondan nümunə götürürlər. Heç bir növbə yoxdur, ancaq özləri istədikləri kimi işsizləri qəbul edir, qeydiyyat aparırlar. Etiraz edən isə artıq iş ilə təmin olunmayacağına əmin ola bilərlər. Süründürməçilik hökm sürür, birja əməkdaşları bu qədər səs-küyə baxmayaraq. öz istədikləri kimi hərəkət edirlər. Birjada, həmçinin, bir sıra yad elementlərin-möhtəkir, tacir, keçmiş zamanların insanlarının qeydiyyata alındığı yazılırdı. Yoxlamalar zamanı əmək birjasının tibbi-sanitar şöbəsində qeydiyyat aparan Aqamovanın, həmçinin, hərbi seksiyanın rəisi Svebelovun fəaliyyətlərinin qeyri qənaətbəxş olduğu bildirilirdi. Məsələn, Aqamovanın qeydiyyat apararkən süründürməçiliyə yol verdiyi, Svebelova isə şikayətlərə baxmaq tapşırılsa da, bunun əksinə olaraq, şikayət edənlərin artıq heç bir iş ilə təmin olunmadıqları iddia olunurdu. Daha sonra materialda yazılırdı ki, Birjada Bakı Sovetinin növbətçi nümayəndəsi də çalışır. Lakin onun heç bir faydası yoxdur. Aprel ayından ona 200 ərizə təqdim olunsa da onların heç biri araşdırılmamış, heç bir qərar qəbul olunmayıb. Bəzən işsizləri müvəqqəti işlərə göndərir, çox zaman onların aylıq maaşları verilmir, işsizlərlə olduqca təhqiredici münasibəti Nəqliyyatın Beton Elementləri idarəsinin işçisi Bens nümayiş etdirmişdir. Onun tələbi ilə əmək birjası şoferləri işə göndərsələr də, o, şoferləri çox az əməkhaqqı müqabilində, nalayiq davranışlar altında çalışmağa məcbur etmişdir. Bir çox idarələr əmək birjasından yan keçirlər. Bir az əvvəl Azneftin tikinti idarəsi əmək birjasının xəbəri olmadan Luçinskini kargüzar kimi işə götürmüş, sonra məlum oldu ki, idarəyə kargüzar lazım deyil, iki həftə idarədə qaldıqdan sonra onu rayon nəzarətçisi kimi işə qəbul etmişlər. Halbuki, əmək birjasında iş üçün ehtiyacı olanlar uzun müddət gözləməli olurlar [4, №190, 1929].

Qeyd etmək lazımdır ki, əmək birjası aparatında "təmizlik işlərinin" avqustun 17-nə kimi qurtarılması və birjanın öz işinə başlaması nəzərdə tutulsa da, sonradan

dövrü mətbuatda həmin müddətin ayın 20-ə keçiriləcəyi xəbər verilirdi. Səbəb kimi isə bütünlükdə sovet idarəetmə aparatına olduqca çoxlu yad elementlərin daxil olduğu da bildirilirdi. Məsələn, Fəhlə-Kəndli Müfəttişliyində əmək birjasında qeydiyyatdan keçmədən keçmişdə mülk və evləri olan Gevorkov qardaşlarının, valyuta ilə möhtəkir əməliyyatlar aparan, islah düşərgəsində olan Aleksey İvanovun Fəhlə-Kəndli Müfəttişliyinin mağazalarından birində çalışdığı, məşhur şərabçı Forerin kürəkəni mühəndis Kun 48.000 manat dövlət vəsaitini israf edərək 8 il həbs cəzasına məhkum olunsa da 6 aydan sonra Azneftin onu yenidən işə dəvət etdiyi bildirilirdi. Bütün bu səbəblərə görə Xalq Əmək Komissarlığı əmək birjasının bütün seksiyalarına əmək siyahısı (*kitabçası*) olmadan heç bir işsizi qeydiyyata almamağı tapşırırdı. Eyni zamanda, Mərkəzi Komissiya "təmizlik işlərinin" aparılması zamanı xüsusi anketlərin əsasında, əmək kitabçaları əsasında siyahı və anketlərin hazırlanmasını qərara almışdı [4, №191, 1929].

Əmək birjasında qeydə alınmış "zehni əməklə-kontor işi ilə məşğul olan" işsizlər kateqoriyasına daxil olanların yoxlanılması işi avqustun 17-dən 31-nə kimi davam etmişdi. Bütünlükdə bu kateqoriyaya daxil olan 4879 nəfər işsizdən 2023 nəfər qeydiyyatdan çıxarılmış və ancaq 2856 nəfər qeydiyyat siyahısında saxlanılmışdı. Dövrü mətbuatda dərc olunmuş materiallarda əmək birjasının digər seksiyalarının siyahısındakı işsizlərində yoxlamadan keçəcəyi barədə də məlumat var. Məsələn, tibbi-sanitar seksiyasında işsiz kimi qeydiyyata alınmış şəxslərin də yoxlamalardan keçəcəyi barədə məlumatlar  verilirdi [4, №206, 1929].

Daha sonra 1929-cu ildə sentyabrın 8-də "Бакинский рабочий" qəzetində "Əmək birjasındakı köçərilər" başlığı ilə  dərc edilən material diqqəti cəlb edir. Material yenə də Bakı şəhərinin Lenin rayonundakı əmək birjasının fəaliyyətinin yoxlanılması materialları əsasında komissiya üzvləri Qalkin, Aksyonov, Qurban Əli, Şirçikov, Qazarov, Parfyonova, Zubov, Boçkov, Tağıyev Əli*, A.Batalov adından təqdim olunmuşdur. Burada yazılırdı ki, avqustun 18-dən Lenin rayonunun əmək birjasında işsizlərin tərkibinin yoxlanılmasına başlanılmışdır. Komissiyanın tərkibinə rayon sovetindən, rayon seksiyasından, Fəhlə-Kəndli Müfəttişliyindən, sığorta kassasından və digər təşkilatlardan, eyni zamanda, işsizlərdən nümayəndələr var. Bu materialda diqqəti cəlb edən cəhət işsiz kimi təqdim edilənlərin sayının şişirdilməsi, bir çox şəxslərin şəhərbəşəhər gəzərək daha yaxşı qazanc axtarmaları, bəzilərinin gəlir və dolanışıq mənbələri olduğu halda özlərini işsiz kimi qeydiyyat siyahılarına yazdırdıqları göstərilir. Onlar əmək birjasının köçəriləri adlandırılırdı. Lakin ən diqqətəlayiq məqam bir sıra işçilərin ixtisarla əlaqədar qeydiyyata düşmələri ilə əlaqədar məlumatların verilməsidir. Belə işçilər qismində 843 süpürgəçinin, 178 telefonçu, poçtalyon, qeydiyyat aparan işçilərin olduğu göstərilir [4, №209, 1929].

Dövrü mətbuatda dərc edilən materiallardan məlum olur ki, artıq 1930-cu ildə mayın 1-nə kimi Bakı Əmək Birjasında 25 min işsiz qeydə alınmışdı. Qeydə alınan

*Yuxarıda adları çəkilən komissiya üzvlərinin kimliyi ilə əlaqədar məlumat əldə olunmamışdır.

işsizlərin 50%-i qadın, 25%-i az yaşlılar idi. Bunlardan ancaq 11%-i mütəxəssislər idi. Mayın 25-də dərc edilən materialda bildirilirdi ki, əmək birjasından kənarda işə qəbul edilmələrə son qoyulmalıdır [2, №116, 1930].

1930-cu ildə iyulun 9-da "Kommunist" qəzetində dərc edilən məqalədə yazılırdı ki, əmək birjası artıq adamlardan təmizlənməlidir. Birjanın vəziyyətini təhlil etmək üçün Fəhlə-Kəndli Müfəttişliyi tərəfindən komissiya təşkil edilib. Burada eyni zamanda yazılırdı ki, birjaların dairələrdəki, şöbələrində çox az işsiz qeydə alınıb və müvafiq qurumun ləğv edilməsi gündəmə də idi [2, №154, 1930].

## 5.Nəticə

Göründüyü kimi, Azərbaycanda topdansatış ticarət praktikası, dünya və regional ticarətdə böyük rol oynayan ticarət və yarmarkaların yaranması tarixi son antik və erkən feodalizm dövrünə gedib çıxsa da dövrün fövqəl güclərinin təsiri müəyyən mənada yadelli istilaları və dağıdıcı müharibələr sözügedən institusional obyektlərin bazasında topdansatış ticarət formasının daha mütəşəkkil formalarının ölkəmizdə bir qədər erkən dövrlərdə bərqərar olması prosesinə neqativ təsir göstərmişdir. Konkret olaraq, Azərbaycan ərazisində yaranan ilk birja kimi 1886-cı ildən yaradılan Bakı Birjasının adı çəkilir. XIX əsrin sonlarından XX əsrin 30-cu ilinə kimi Azərbaycanda birjalar fəaliyyət göstərmiş və birjaların fəaliyyətinə mövcud sistemlərin xüsusiyyətləri ciddi təsir göstərmişdir. XIX əsrin sonu və XX əsrin əvvəllərində fəaliyyət göstərən birjalar rus imperiyası maraqları çərçivəsində bazar iqtisadiyyatı şəraitində dövriyyə sferasının əsas elementlərindən biri, dəyərlərin qarşılıqlı olaraq mübadiləsinin həyata keçirildiyi təsisat və təşkil olunmuş bazar qismində çıxış edirdi. Sovet dövründə öncə birjalar ləğv olunmuş, daha sonra Yeni İqtisadi Siyasət dövründə birja praktikasından istifadə olunsa da, sonrakı illərdə sovet iqtisadi idarəetməsinin qüsurları (*süründürməçilik, korrupsiya, vəzifə səlahiyyətlərindən istifadə və s.*) birjaların fəaliyyətinə ciddi təsir göstərmişdir.

### Ədəbiyyat siyahısı:

1. Azərbaycan Sovet Ensiklopediyası. (1978) II cild. , Bakı: 592 s.
2. "Kommunist" qəzeti, (1930), Bakı: №116, №154
3. Авилина И.В., Козырь О.М., (1991). Биржа правовые основы организации и деятельности (создание, структура, функционирование, прекращения деятельности), М.: Экономика и права, 111 с. (*İ.V.Avilina, J.M. Kozır, 1991. Birjanın təşkil olunması və fəaliyyətinin hüquqi əsasları (yaradılması, strukturu, fəaliyyət göstərilməsi və fəaliyyətinin dayandırması), M.,İqtisadiyyat və hüquq. 111 s.*)
4. "Бакинский рабочий" - газета, (1929), №89, №97, №180, №190, №191, №206; №209 (*"Bakı fəhləsi" qəzeti, 1929, №89, №97, №180, №190, №191, №206; №209*)
5. Коновалова А.В. (2005). Акции нефтяных предприятий в начале XX века на С.-Петербургской фондовой бирже, Экономическая история. Обозрение / Под ред. Л.И.Бородкина. Вып. 10. М.: 284 с. (*A.V. Konovalova, XX əsrin əvvəllərində S.Peterburq fond birjasında neft müəssisələrinin səhmləri, İqtisadi tarix. Şərhlər/ L.İ.Brodkinanın redaktəsi ilə. 10-cu buraxılış. M.284 c.*)
6. Резго Г.Я. (2003), Биржевое дело, М.: Финансы и статистика, 272 с. (*Q.Y. Rezqo 2003, Birja işi, M.: "Maliyyə və statistika", 272 s.*)
7. "Экономический Вестник", (Еженедельный орган Высшего Экономического Совета АССР) (1921, 1923). Баку: №2, №4 (*"İqtisadi Xəbərlər", Azərbaycan Ali İqtisadi Şurasının həftəlik nəşr edilən orqanı, Bakı 1921, №2, 1923, №4*)

**Самандаров Сейфаддин Сабир оглы**
доктор философии по экономике, доц.,
Национальная Академия Наук Азербайджана Институт Экономики

## Исторические и экономические аспекты возникновения и развития бирж в Азербайджане

**Аннотация**

*Цель исследования:* исследования фактов, связанных с генезисом бирж и их институциональной историей;

*Методология исследования:* ретроспективный и сравнительный анализы, методы синтеза и дедукции;

*Результат исследования:* оценены в историческом и экономическом аспектах возникновение и функционирование деятельности бирж Азербайджана в 1886-1930 годах;

*Ограничения исследования:* связаны со специфичностью объекта исследования, с трудностями доступа к необходимой научной информации и возможностями по проведению сравнительного анализа исторических фактов;

*Практическая значимость исследования:* возможность использования исторического опыта в разработке более оптимальных механизмов для усовершенствования функционирования бирж в республике;

*Оригинальность исследования и научная новизна:* исследуемая проблема, некоторые определенные факты впервые вводятся в научный оборот.

**Ключевые слова:** *Азербайджанская экономика, биржи, фондовые биржи, товарные биржи, оптовая торговля*

**Samandarov Seyfaddin Sabir oglu**
doctor of philosophy on economy,
Institute of Economy in Azerbaijan National Academy of Sciences

## Historical and economic aspects of the formation and development of the exchanges in Azerbaijan

**Abstract**

*Purpose:* analysis of historical facts which are bound reflections of the questions of the formation and development of the exchanges in Azerbaijan.

*Methodology:* retrospective and comparative analysis, synthesis and deduction methods.

*Finding:* historical and economic assessment of formation and activities of exchanges in Azerbaijan in 1886-1930.

*Research limitations:* these are connected with specificity of the research object, opportunities of getting of scientific information and comparative analysis of historical facts.

*Practical implications:* giving of opportunity of using from historical experience for formation of more optimal mechanisms related to improvement of activities of exchanges in Azerbaijan.

*Originality:* first time, researching problem and determined some facts are entered into scientific turn.

**Key words:** *Azerbaijan economy, exchanges, stock markets, goods exchanges, wholesale business*

**JEL Classification Codes:** B14, B26, E21, E62, H2 .

Məqalə redaksiyaya daxil olmuşdur: 20.09.12.
Təkrar işləməyə göndərilmişdir: 27.09.12.
Çapa qəbul olunmuşdur: 15.10.12.